# Azərbaycan Silahlı Qüvvələri effektiv müdafiə qüdrətinə sahibdir və hər an torpaqlarımızı azad etməyə hazırdır

## *Hərbi potensialın daim gücləndirilməsi, ordunun döyüşə və səfərbərliyə hazır vəziyyətdə olması diqqət mərkəzindədir*

**Müstəqil Azərbaycanın silahlı qüvvələri qarşıya qoyulan bütün vəzifələri yerinə yetirməyə qadirdir. Ordu quruculuğu çox sürətlə inkişaf edir. Dövlət həm hərbi potensialı gücləndirir, həm də orduda hazırlıq səviyyəsini artırır. Bu proses ulu öndər Heydər Əliyevin 1993-cü il iyunun 15-də xalqın tələbi ilə hakimiyyət sükanına qayıtmasından sonra başlamışdır. Ümummilli liderin strateji siyasi kursunu ləyaqət, qətiyyət, bacarıqla, dövrün müasir çağırışlarına müvafiq həyata keçirən ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğunda və hərbi potensialın artırılmasında dinamika təmin edilmişdir.**

Ulu öndər Heydər Əliyevin strategiyasını uğurla reallaşdıran dövlət başçısı neft amilindən istifadə edərək real iqtisadiyyatın çoxşaxəli inkişafını təmin etmək üçün bütün siyasi və hüquqi addımları atır. Bu gün Azərbaycanın enerji təhlükəsizliyi təmin olunub, neftdən gəlirlərin qeyri-neft sektoruna yönəldilməsi ilə iqtisadiyyatın davamlı çoxşaxəli inkişafına nail olunub, ölkə öz karbohidrogen ehtiyatları ilə Avropa və Asiya qitələri dövlətlərinin enerji təhlükəsizliyinin təmin olunmasında önəmli rol oynayır. Ölkə öz iqtisadi qüdrətini artırdıqca paralel olaraq hərbi potensialını və Silahlı Qüvvələrini də gücləndirir. Ordu ölkənin ən mühüm atributlarından biridir. Qüdrətli ordu dövlətin müdafiəsində həlledici şərtdir və milli maraqların təminində ən əsas amillərdəndir. Hazırki şəraitdə Azərbaycan Respublikası Silahlı Qüvvələri ölkəmizin müdafiə qabiliyyətini təmin etməkdədir. Azərbaycan Prezidenti İlham Əliyev Qaradağ rayonunda Hərbi Dəniz Qüvvələrinin yeni bazası və "N" saylı hərbi hissənin açılışındakı çıxışında ordu quruculuğunda gedən proses barədə demişdir: "Azərbaycanda ordu quruculuğu prosesi uğurla gedir. Bu, bizim üçün prioritet məsələdir. Ordumuz inkişaf edir, güclənir".

Azərbaycan hərbi doktrinasında əsas istiqamətlər dinc yanaşı yaşama, dövlətlərin suverenliyinə və müstəqilliyinə hörmət və toxunulmazlığı, mövcud sərhədlərin bütövlüyü və dəyişməzliyi, daxili işlərə qarışmama, beynəlxalq hüquq normalarına riayət, təhlükəsizliyin təmini və digər sülhə xidmət və qarşılıqlı maraqları təmin edən əməkdaşlıqdır.

Bu gün Azərbaycan müharibə şəraitində yaşayır. Hazırda Silahlı Qüvvələrimizin qarşısında duran ən mühüm məsələ elan olunmamış müharibədə zəbt olunmuş 20 faiz ərazimizin azad edilməsi, ölkəni gələcəkdə də təhdid edəcək müdaxilələrin qarşısını almaq, bütün ərazilərimizdə dövlətin suverenliyini bərpa etməkdir. Ölkənin NATO-nun "Sülh naminə tərəfdaşlıq" Proqramının müvafiq mexanizmlərində iştirakı, NATO dövlətləri və digər dövlətlərlə beynəlxalq hüquq normaları çərçivəsində faydalı ikitərəfli və çoxtərəfli əməkdaşlıq regionda və ümumən dünyada sülhə xidmət edən, təhlükəsizliyi təmin edən töhfələrdir.



Ötən ilin sentyabr ayında "ADEX-2014" 1-ci Azərbaycan Beynəlxalq müdafiə sənayesi sərgisi olmuşdur. Regionda həyata keçirilən mühüm layihələr nəticəsində təhlükəsizlik və əməkdaşlıq sahəsində ciddi nailiyyətlər əldə edilmiş, ölkəmiz regionda təhlükəsizliyin və sabitliyin qarantına çevrilmişdir. Həmçinin dövlət hərbi sənaye sahəsində də irimiqyaslı layihələr reallaşdıraraq öz imkanlarını əsaslı şəkildə genişləndirmişdir. Hazırda Azərbaycan 900 addan çox müxtəlif hərbi təyinatlı məhsul, o cümlədən bütün növ döyüş sursatları, müxtəlif texnika və silahlar istehsal edir. Ölkəmiz ilk qatıldığı sərgidə 27 adda məmulatla təmsil olunurdusa, "ADEX-2014"-də 37 şirkətlə qatılıb və 168 adda məhsul nümayiş etdirib. Sərgidə dünyanın 34 ölkəsindən 200 şirkət və 22 rəsmi nümayəndə iştirak edib. Bu il Birləşmiş Ərəb Əmirliklərində keçirilən "İDEX - 2015" beynəlxalq müdafiə sənayesi sərgisində Azərbaycan Müdafiə Sənayesi Nazirliyi 170-dən artıq müdafiə təyinatlı məmulat nümayiş etdirib. Silah və sursatlar xarici nümayəndə heyətləri tərəfindən böyük maraqla qarşılanıb. Bu, onu təsdiq edir ki, dövlətin bu strukturları müxtəlif ölkələrin hərbi sənaye kompleksləri ilə uğurlu əməkdaşlıq edir və həmin əlaqələri davamlı surətdə yeni, yüksək mərhələyə qalxır. Bütün bunlar Azərbaycanın nüfuzunu və gücünü artıran, mövqelərini gücləndirən amillərdir. Ölkəmizin hərbi qüdrətinin və potensialının artması, hərbi sənaye kompleksinin davamlı və yüksək templi inkişafı bizi işğal edilmiş ərazilərimizin tezliklə azad olunmasına sürətlə yaxınlaşdırır.

Azərbaycanın regionda mövqelərini möhkəmləndirən amillərdən ən əsası dövlətin hərtərəfli, sürətli inkişafı, neft kapitalının insan kapitalına çevrilməsi, müdafiə qabiliyyətinin davamlı surətdə gücləndirilməsidir. Bugünkü hərbi qüdrət ulu öndər Heydər Əliyev siyasi kursu ilə bağlıdır. Müasir dövlətimizin banisi XX əsrdə 1969-cu ildə hakimiyyətə gəldikdə milli zabit kadrları hazırlığını ön plana çəkdi. Ümummilli liderin uzaqgörən siyasəti nəticəsində ölkəmiz bu istiqamətdə, demək olar ki, heç bir çətinliklə qarşılaşmadı. Heydər Əliyevin yaratdığı C.Naxçıvanski adına Hərbi Məktəb bu sahədə xüsusi rol oynadı. Həmin kadrlar müstəqillik illərində milli ordumuzun zabit kadrları ilə komplektləşdirilməsini təmin etdilər. Bu gün onlar müasir Azərbaycan ordusunda şərəf və ləyaqətlə xidmət edirlər.

1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dövründə formalaşdırılmış milli ordu bolşeviklərin işğalından sonra ləğv edilmişdi.

**(davamı 3-cü səhifədə)**

# Azərbaycan Silahlı Qüvvələri effektiv müdafiə qüdrətinə sahibdir və hər an torpaqlarımızı azad etməyə hazırdır

## *Hərbi potensialın daim gücləndirilməsi, ordunun döyüşə və səfərbərliyə hazır vəziyyətdə olması diqqət mərkəzindədir*

**(əvvəli 1-ci səhifədə)**

Sovet dönəmində azərbaycanlılar yüksək hərbi vəzifəyə irəli çəkilməmiş, çoxlu süni maneələr yaradılmışdı. Ulu öndərin düşünülmüş siyasəti və rəhbərliyi ilə ölkəmizin NATO standartları səviyyəsində müasir ordusu quruldu, ən yeni texnologiyalarla təmin edildi. Bunun nəticəsində işğalçıların ərazimizi yenidən işğal etmək niyyətləri puça çıxdı. Ümummilli liderin 22 may 1998-ci il sərəncamı ilə Azərbaycan Xalq Cümhuriyyəti dövründə Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün — 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr günü elan olunmuşdur. Hər il bu tarix rəsmi dövlət bayramı kimi təntənəli şəkildə qeyd edilir. Ulu öndərin strateji kursu onun siyasi varisi ölkə rəhbəri İlham Əliyev tərəfindən çox böyük səriştə və bacarıqla reallaşdırılır. Dövlət başçısı İlham Əliyevin diqqət və qayğısı sayəsində qısa müddətdə ölkəmizdə ordu quruculuğu və müdafiə sənayesində yüksək templi dinamik inkişaf dövrü başlandı. Ordunun təchizində yerli hərbi məhsullar mühüm yer tutmağa başlayıb. Ölkə rəhbəri Azərbaycanda ordu quruculuğu və müdafiə sənayesi sahəsində dinamik inkişaf barədə deyib: “Bu gün Azərbaycanda minə yaxın adda hərbi təyinatlı məhsul istehsal edilir və bu da ordumuzun təchizatı üçün əvəzolunmaz haldır. Beləliklə, biz idxaldan asılılığımızı böyük dərəcədə azaltmışıq. Ancaq yüksək dəqiqliyə və böyük dağıdıcı qüvvəyə malik olan silah-sursat, döyüş helikopterləri, döyüş təyyarələri alınır. Ordumuz üçün lazım olan qalan bütün ləvazimat, avadanlıq, texnika, mərmilər, patronlar Azərbaycanda istehsal edilir. Biz hətta hərbi məhsullarımızı ixrac etməyə başlamışıq. Azərbaycan dünyanın aparıcı beynəlxalq hərbi sərgilərində öz məhsullarını nümayiş etdirir”.

Regionun lider dövlətinə çevrilmiş Azərbaycanın qarşısında ən çətin, ağrılı problem işğal olunmuş ərazimizin azad olunmasıdır. İşğalçılara zəbti davam etdirməyə yardım edən isə bu problemə ikili standartlarla yanaşma və müəyyən beynəlxalq güclərin bu militarist və terrorçu dövlətə dəstək vermələridir. Bu tərəfkeşlikdən istifadə edən, beynəlxalq hüquq normalarına riayət etməyən işğalçılar təxribatlarını artırır və ciddiləşdirirlər. 2014-cü ilin sentyabrında təmas xəttində mövqelərimizə təxribat-diversiya qrupu göndərildi, nəticədə 13 əsgərimiz şəhid oldu. Azərbaycan ordusunun cavabı kifayət qədər sərt oldu. İşğalçılar böyük itkilər verərək geri çəkildilər. Bu hadisə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dondurulmuş olmadığını sübut etdi. Lakin bu ciddi insident də ikili standartlarla yanaşmaya son vermədi. Dövlət başçısı öz çıxışlarında ikili standartlarla işğal faktına yanaşmanın ədalətsizlik olduğunu, sona qədər torpaqlarımızın azad edilməsi yolunda yalnız həqiqətə və beynəlxalq hüquqa əsasən mübarizə aparılacağını diqqətə çatdırıb. Beynəlxalq birlikdən lazımi səviyyədə tutarlı cavab almamasının nəticəsidir ki, noyabr ayının 12-də işğalçılar daha ciddi təxribata yol vermişlər. Beynəlxalq qanunlara zidd olaraq işğal olunmuş ərazilərimizdə təlimlərə cəlb edilən Ermənistan Respublikası hərbi hava qüvvələrinə məxsus helikopterlər Azərbaycan döyüşçülərinin mövqelərini atəşə tutmuşlar. Düşmənin helikopterinin biri vurulmuş, digəri isə məkanı tərk etməyə məcbur olmuşdur. Ermənistan Respublikasının Müdafiə Nazirliyi adətinə xilaf çıxmamış, yanlış məlumat vermiş, yenə də beynəlxalq ictimaiyyəti aldatmağa çalışmışdır. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi bildirmişdir ki, Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində döyüş uçuşları keçirən “M-24” hərbi helikopterlər Yerevan yaxınlığındakı “Erebuni” hərbi aerodromunda dislokasiya olunmuş 15-ci helikopter bazasına məxsusdur. Həlak olan mayor Sergey Saakyan, baş leytenant Sarkis Nazaryan, leytenant Azat Saakyan — hər üçü Ermənistan hərbi hava qüvvələrinin zabitləridirlər. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi rəsmən bildirir ki, işğal olunmuş Dağlıq Qarabağ üzərində həyata keçirilən bütün razılaşdırılmamış aviauçuşlar beynəlxalq qanunlar və Beynəlxalq Mülki Aviasiya Təşkilatının qərarlarına ziddir, ölkəmizin hava sərhədlərinin pozulması kimi qiymətləndiriləcəkdir və ən müasir vasitələrə malik Azərbaycan Hərbi Hava Qüvvələri həmin hava hədəflərini dərhal məhv edəcəkdir.

Ölkəmizin açıq-aşkar hərbi üstünlüyü aydın oldu. Bir məsələ də aşkar oldu ki, Ermənistan -Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dondurulmuş deyil, hər an alovlana, Avropa və Asiyanın bu çox mühüm geosiyasi məkanında sabitliyi və təhlükəsizliyi poza bilər. Həqiqət və ədalətin bərpası uğrunda mübarizə davam edir. Ölkə rəhbəri beynəlxalq hüquq normalarına riayət edilmədən, etnik təmizləmə və soyqırımla müşayiət olunan işğala ikili standartlarla yanaşmanın ədalətsizlik olduğu barədə deyib: “Necə olur ki, BMT Təhlükəsizlik Şurasının qətnamələri bəzi hallarda bir neçə saat ərzində icra edilir. Bizə gəldikdə isə 20 il keçibdir, bu qətnamələr kağız üzərində qalır. Bu, ədalətsizlikdir, ikili standartlardır. Ancaq yenə də demək istəyirəm, biz real vəziyyəti çox düzgün təhlil edərək bir daha qərara gəlirik ki, yalnız iqtisadi gücümüzə, hərbi gücümüzə, Azərbaycan xalqının istedadına arxalanmalıyıq... Biz ərazi bütövlüyümüzü bərpa etməliyik və edəcəyik”.

**Hazırda müstəqil siyasət yürüdən Azərbaycan dünyanın bu regionunda aparıcı, qüdrətli dövlətlərindən birinə çevrilib. Ermənistanı isə əhali tərk edir. Azərbaycanda bu gün ən müasir silahlar, döyüş sursatları və yeni hərbi texnika istehsal olunur. Ölkə beynəlxalq hərbi sərgilərdə müvəffəqiyyətlə çıxış edir və nümayiş etdirilən məhsullar böyük maraqla qarşılanır. Hazırda regionun qüdrətli dövləti olan Azərbaycan Hərbi Hava, və Hava Hücumundan Müdafiə, Hərbi Dəniz və Quru qoşunlarına malikdir. Bütün bu istiqamətlərdə ölkə effektiv müdafiə qüdrətinə sahibdir.**

**Ataş CƏBRAYILOV,**
**“Respublika”.**